**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş uşaqlar arasında 7-ci "Zirvə Oyunları"nın**

# Ə S A S N A M Ə S İ

*Xırdalan və Astara şəhərləri.*

*05-28 may 2019-cu il.*

**I. Məqsəd və vəzifələr.**

- Yarişlar 27 (iyirmi yeddi) idman növü üzrə keciriləçəkdir:

- *Ağır atletika*
- *Atçılıq*
- *Atıcılıq*
- *Qılıncoynatma*
- *Atletika*
- *Badminton*
- *Basketbol*
- *Boks*
- *Tennis*
- *Cüdo*
- *Futbol*
- *Çimərlik futbolu*
- *Bədii gimnastika*
- *İdman gimnastikası*
- *Güləş (sərbəst)*
- *Güləş (yunan-Roma)*
- *Karate*
- *Kartinq*
- *Kikboksinq*
- *Pauerliftinq*
- *Şahmat*
- *Stolüstü Tennis*
- *Taekvondo*
- *Üzgüçülük*
- *Voleybol*
- *Çimərlik voleybolu*
- *Kamandan oxatma*

- Ulu Öndər Heydər Əliyevin anadan olmasının ildönümünü təntənəli qeyd etmək;

- Azərbaycan birincilik və çempionatlarında, beynəlxalq yarışlarda cıxış etmək ücün heyətlərin komplektləşdırılməsı;

- gələcək Olimpiya çempionlarının yetişməsinə töhfə verilməsi;

- Bu idman növlərinin yerlərdə təbliği və inkişafı;

- İdmançılar və məşqçılər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi;

- İdmançıların ustalıq səviyyəsinin artırılması, təkmilləşdirilməsi və yarış vərdişlərinin mükəmməlləşdirilməsi;

## II. Yarışın kecirilmə yeri və tarixi

Ağır atletika üzrə yarışlar 05-06 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin Yarış zalında keçiriləcəkdir.

Atçılıq yarışı 26-27 may 2019-cu il tarixlərində AAAF Park Astaranın ərazisində yerləşən ZİSC-nin atçılıq mərkəzinin cıdırında keçiriləcəkdir.

Atletika yarışları 26 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin mini-futbol meydançasında keçiriləcəkdir.

Badminton yarışı 14 may 2019-cu il tarixlərində Zirvə Liseyinin idman zalında keçiriləcəkdir.

Basketbol yarışları 15-19 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin ərazisində yerləşən Zirvə Liseyinin idman zalında keçiriləcəkdir.

Boks üzrə yarışlar 23-27 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin ərazisindəki əsas yarış zalında keçiriləcəkdir.

Tennis yarışları 13-17 may tarixlərində AAAF Park Yaşayış Kompleksinin ərazisindəki kortda keçiriləcəkdir.

Cüdo üzrə yarışlar 18-19 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Çimərlik futbolu üzrə yarışlar 27-28 may 2019-cu il tarixlərində AAAF Park Astarada keçiriləcəkdir.

Futbol üzrə yarışlar 20-21 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin mini-futbol meydançasında keçiriləcəkdir.

Bədii gimnastika yarışı 10 may 2019-ci il tarixlərində AAAF Park Yaşayış Kompleksinin ərazisindəki ZİSC-nin Gimnastika zalında keçiriləcəkdir.

Sərbəst güləş üzrə yarışlar 08 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Yunan-Roma güləşi üzrə yarışlar 07 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Karate yarışları 12 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Kartinq yarışları 26-27 may 2019-cu il tarixlərində AAAF Park Astaranın ərazisindəki kartinq trasında keçiriləcəkdir.

Kikboksinq üzrə yarışlar 22-23 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Şahmat yarışları 12-13 may 2019-cu il tarixlərind AAAF Park Yaşayış Kompleksinin Uşaq-İdman Akademiyasının şahmat zalında keçiriləcəkdir.

Stolüstü tennis yarışı 13 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Taekvondo üzrə yarış 11 may 2019-cu il tarixində AAAF Park Yaşayış Kompleksinin əsas yarış zalında keçiriləcəkdir.

Üzgüçülük üzrə yarışlar 19 may tarixi, saat 10:00-da AAAF Park Yaşayış Kompleksinin Üzgüçülük Hovuzunda keçiriləcəkdir.

Voleybol üzrə yarışlar 18-19 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin ərazisindəki Zirvə Liseyinin idman zalında keçiriləcəkdir.

Çimərlik voleybolu üzrə yarışlar 24-26 may 2019-cu il tarixlərində AAAF Park Astaranın ərazisindəki çimərlikdə keçiriləcəkdir.

Qılıncoynatma üzrə yarışlar 11-12 may 2019-cu il tarixlərində AAAF Park Yaşayış Kompleksinin ərazisindəki Zirvə Liseyinin idman zalında keçiriləcəkdir.

## III. Yarışlara rəhbərlik

Yarışın təşkilinə "Zirvə" İnternational Sport Clubs MMC rəhbərlik edir.

Yarışların keçirilməsi qeyd olunan idman növləri üzrə hakimlər heyətinə həvalə olunur.

## IV. Yarışların iştirakcıları

Yarışlarda Azərbaycan Respublikasının şəhər, rayon, qəsəbə və kəndlərdə "Zirvə" İnternational Sport Clubs-un klub və bölmələrinin, həmçinin klubu ölkə xaricindəki bölmələrinin, bununla yanaşı, digər əcnəbi idmançı və atletlərin arasından həkim müayinəsindən keçmiş, seçilmiş idmançılar edə bilərlər.

## V. Yarışların kecirilmə qaydaları

Yarışlar yaş qrupları, çəkilər və digər – hər idman növünə xas olan qaydalar üzrə kecirilir.

**Ağır atletika** üzrə yarışlar çəki dərəcələri uzrə kecirilir və şəxsi xarakter daşıyır. Yarışa texniki cəhətdən hazırlıqlı idmançılar buraxılırlar. Gəlmə günü 4 maydır. Yarışlar 2005-2006 təvəllüdlü oğlanlar və qızlar arasında keçiriləcəkdir. Çəki dərəcələri bunlardır: 26 kq; 30 kq; 34 kq; 38 kq; 42 kq; 46 kq; 50 kq; 55 kq; 61 kq; +61 kq. Çəkilmə 05 may tarixində saat 11:00-da başlanır və yarışın bütün idmançıları çəkilirlər. Yarış saat 13:00-də başlanır. Qızlar Sinkleyr cədvəli əsasında, oğlanlar isə çəki dərəcələrində qalibləri müəyyən edəcəklər. 2007-09-cu il təvəllüdlü idmançılar da yarışlara qatıla bilərlər.

**Boks** üzrə yarışlarda gəlmə günü 23 maydır. Mandat komissiyası 23 may saat 09:00-19:00 arası, idmançıların çəkilməsi 23 may, 16:00-19:00-da olacaq. Yarış şəxsi xarakterli olub Olimpiya sistemi ilə kecirilir. Yarışa 2005-2006 təvəllüdlü boksçular göstərilən çəki dərəcələrində buraxılırlar: 35.5 kq; 37 kq; 38.5 kq; 40 kq; 41.5kq; 43 kq; 44.5 kq; 46 kq; 48 kq; 50 kq; 52 kq; 54 kq; 56 kq; 59 kq; 62 kq-dək.

**Kikboksinq** yarışlarında 2006-09-cu il təvəllüdlü idmançıların iştirak edəcək. Yarış aşağıdakı çəki dərəcələri üzrə Olimpiya sistemi ilə keçiriləcək: 26 kq, 28 kq, 32 kq, 37 kq, 42 kq, 47 kq, +47 kq.

**Badminton** yarışı 14 may tarixind saat 10:30-da başlanır və Zirvə Liseyinin idman zalında keçiriləcək. Turnirdə 2009-cu il və daha az yaşlı qız və oğlanlar iştirak edəcək. Yarış şəxsi xarakter daşıyacaq və Olimpiya sistemi ilə keçiriləcək.

**Futbol** üzrə yarışlar 20 may tarixində başlanır. Komandaların tərkibi 8 futboçu və 1 məşqçidən ibarətdir. Futbolçular 2005-2006 (qarışıq) və 2009 -2010-cu il təvəllüdlü olmalıdır. Oyun zamanı meydanda 2010-cu il təvəllüdlü 3 (üç) futbolçu iştirak edir. Oyunlar iki hissədən ibarət olub 40 (20+20) dəqiqə ərzində keçirilir, taymlararası fasilə 10 dəqiqədir. Final oyunun heç-heçə qurtarması halında 11 metrlik cərimə zərbələri vurulur. Yarışlar komandaların sayından asılı olaraq Olimpiya (pley-off) sistemi ilə həyata keçirilir.

**Stolüstü tennis** yarışı şəxsi xarakter daşıyır. Turnirdə 2007-ci il və daha az yaşlı oğlan və qızlar iştirak edə bilərlər.

**Şahmat** yarışı açıq statusa malikdir. Şəxsi xarakterli turnirdə 14 yaşa qədər oğlan və qızlar qarışıq şəkildə Olimpiya sistemi ilə medal mübarizəsi aparacaqlar.

**Atletika** yarışları 9-10 yaşlı uşaqlar arasında qaçış, hündürlüyə tullanma, uzunluğa tullanma, nüvə atma, uzun məsafəyə qaçış növləri üzrə keçiriləcək. Qaliblər müvafiq növlərin qaydalarına uyğun olaraq müəyyən ediləcək. Yarışlar şəxsi xarakter daşıyır.

**Bədii gimnastika** yarışları 2009-14-cü illər doğumlu qızlar arasında qrup və fərdi şəkildə alətsiz, halqa və topla keçiriləcək.

**Cüdo** yarışlarında gəlmə günü 18 may tarixidir. Turnirdə 2005-07-ci il təvəllüdlü oğlanlar aşağıdakı çəki dərəcələrində çıxış edəcəklər: 30, 34, 38, 42, 46, 50, 55, 60, 66, 73 və +73 kq.

**Kartinq** yarışları şəxsi xarakter daşıyacaq və iştirakçı sayına uyğun olaraq Olimpiya sistemi ilə həyata keçirilərək qalib və mükafatçılar müəyyən olunacaqdır.

**Basketbol** yarışları yaşı 14-ə qədər olan oğlan və qızlar arasında, 3x3 növündə komandaların sayına uyğun olaraq Olimpiya sistemi ilə keçiriləcək.

**Taekvondo** üzrə yarışda idmançıların çəkilməsi 10 may tarixində saat 10:00-dan 17:00-a qədər "Zirvə" Uşaq-İdman Akademiyasında keçiriləcək. Yarış may ayının 11-də saat 09:00-da başlayır. İştirakçılar - uşaqlar (oğlan və qızlar) -2008-2009-cu illər, yeniyetmə (oğlan və qızlar) -2005-2007-ci illər olacaqlar. Çəki dərəcələri (uşaqlar -2008-2009) oğlanlarda – 24 kq, -27 kq, -30 kq, -33 kq, -36 kq, -40 kq, 44 kq; qızlarda -24 kq, -27kq, -30 kq, -33 kq,-36 kq, -40 kq, -44 kq; yeniyetmə (2005-2007) oğlanlarda -30 kq, -33 kq, -37 kq, -41 kq, -45 kq, -49 kq, 57 kq, 61 kq, -53 kq; qızlar -29 kq, -33 kq, -37 kq, -41 kq, -44 kq, -47 kq təşkil ediləcəkdir.

**Atçılıq** yarışları 25-26 may tarixlərində dairəvi sistem üzrə AAAF Park Astarada keçiriləcək. Yarışlar şəxsi xarakter daşıyır.

**Tennis** yarışı dairəvi sistemlə şəxsi birincilik xarakter daşıyır. Turnirdə yaşı 14-ə qədər olan oğlan və qızlar iştirak edə bilərlər.

**Üzgüçülük** yarışları şəxsi xarakter daşıyır və iştirakçıların sayına uyğun olaraq Olimpiya sistemi ilə 4 növ – 50 m brass, 50 metr sərbəst, 50 m batterflay, 50 arxası üstə – üzrə keçiriləcək. Qaliblər yaşı 8-14-ə qədər olan qızlar və oğlanlar arasında müəyyən ediləcək.

**Çimərlik voleybolu** yarışı komanda sayına uyğun olaraq Olimpiya sistemi ilə, yalnız yaşı 14-ə qədər olan oğlanlar arasında keçiriləcək.

**Çimərlik futbolu** yarışı komanda sayına uyğun olaraq, yalnız yaşı 14-ə qədər olan oğlanlar arasında keçiriləcək.

**Voleybol** yarışı yaşı 14-ə qədər olan uşaqlar arasında keçiriləcək.

**Karate** üzrə yarışlar may ayının 12-də saat 09:00-da başlanır və aşağıdakı yaş qrupu və çəki dərəcələrində keçiriləcəkdir: Uşaqlar (oğlanlar) – *5 yaş:* -20 kq, -25 kq, +25 kq; *6-7 yaş:* -20 kq, -23 kq, -28 kq, -33 kq, +33 kq; *8-9 yaş:* -23 kq, -28 kq, -33 kq, -38 kq, +38 kq; *10-11 yaş:* -30 kq, -35 kq, -40 kq, -45 kq, +45 kq; *12-13 yaş:* -40 kq, -45 kq, -50 kq, -55 kq, +55 kq.

Sərbəst və Yunan-Roma **güləş** növləri üzrə yarışlar 2005-2006 təvəllüdlü oğlanlar arasında çəki dərəcələri uzrə  kecirilir və şəxsi xarakter daşıyır. Yarışa texniki cəhətdən hazırlıqlı idmançılar buraxılırlar. Sərbəst güləş üzrə yarışa gəlmə 07 may, püşkatma həmin gün saat 16:00, çəkilmə isə həmin gün 08:00-08:30 arasında keçiriləcək. Çəki dərəcələri bunlardır: 35 kq; 38 kq; 41 kq; 44 kq; 48kq; 52 kq; 57 kq; 62 kq; 68 kq; 75 kq.

## VI .Yarışların reqlamentı.

| No | İdman növləri | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Ağır atletika | ■ | ■ | | | | | | | | | | | | | | | | | | | | | | |
| 2. | Atçılıq | | | | | | | | | | | | | | | | | | | | | | ■ | ■ | |
| 3. | Atletika | | | | | | | | | | | | | | | | | | | | | | ■ | | |
| 4. | Badminton | | | | | | | | | | ■ | | | | | | | | | | | | | | |
| 5. | Basketbol | | | | | | | | | | | ■ | ■ | ■ | ■ | ■ | | | | | | | | | |
| 6. | Boks | | | | | | | | | | | | | | | | | | | ■ | ■ | ■ | ■ | ■ | |
| 7. | Tennis | | | | | | | ■ | ■ | ■ | | | | | | | | | | | | | | | |
| 8. | Cüdo | | | | | | | | | | | | | ░ | ■ | ■ | | | | | | | | | |
| 9. | Futbol | | | | | | | | | | | | | | | | ■ | ■ | | | | | | | |
| 10. | Bədii gimnastika | | | | | ░ | ■ | | | | | | | | | | | | | | | | | | |
| 11. | Güləş (sərbəst) | | | | ■ | | | | | | | | | | | | | | | | | | | | |
| 12. | Güləş (Y-Roma) | | | ■ | | | | | | | | | | | | | | | | | | | | | |
| 13. | Karate | | | | | | | | ■ | | | | | | | | | | | | | | | | |
| 14. | Kartinq | | | | | | | | | | | | | | | | | | | | | | ■ | ■ | |
| 15. | Kikboksinq | | | | | | | | | | | | | | | | | | ■ | ■ | | | | | |
| 16. | Şahmat | | | | | | | | ■ | ■ | | | | | | | | | | | | | | | |
| 17. | Stolüstü Tennis | | | | | | | | | ■ | | | | | | | | | | | | | | | |
| 18. | Taekvondo | | | | | | | ■ | | | | | | | | | | | | | | | | | |
| 19. | Üzgüçülük | | | | | | | | | | | | | | | ■ | | | | | | | | | |
| 20. | Voleybol | | | | | | | | | | | | | | ■ | ■ | | | | | | | | | |
| 21. | Çimərlik voleybolu | | | | | | | | | | | | | | | | | | | | ■ | ■ | ■ | | |
| 22. | Çimərlik futbolu | | | | | | | | | | | | | | | | | | | | | | | ■ | ■ |
| 23. | İdman gimnastikası | | | | | | | | | | | | | | | | | | | | | | | | |
| 24. | Qılıncoynatma | | | | | | | ■ | ■ | | | | | | | | | | | | | | | | |
| 25. | Atıcılıq | | | | | | | | | | | | | | | | | | ■ | | | | | | |
| 26. | Pauerliftinq | | | | | | | | | | | | | | | | | | | | | | | | ■ |
| 27. | Kamandan oxatma | | | | | | | | | | | | | | ■ | | | | | | | | | | |

## VII. Mükafatlandırılma

Yarışlarda hər yaş qrupunda, çəkidə, həmçinin idman növü üzrə müvafiq qaydaya görə I-II-III yerləri tutan idmançılar və komandalar "Zirvə" İnternational Sport Clubs MMC-nin medalları ilə mükafatlandırılırlar.

## VIII. Maliyyə xərcləri

Yarışların təşkili, keçirilməsi, idmançıların mükafatlandırılması və digər xərclər təsdiq olunmuş smeta sənədi əsasında "Zirvə" İnternational Sport Clubs MMC tərəfindən ödənilir.

Hazırkı sənəd maliyyə hesabatları üçün əsas sayılır.

*Zirvə İnternational Sport Clubs*